# Dayanıqlı Transformasiya üçün Ərzaq və Kənd Təsərrüfatı Tərəfdaşlığı üzrə nazirlər görüşü olub

Azərbaycanın evsahibliyi etdiyi COP29 sessiyası çərçivəsində Dayanıqlı Transformasiya üçün Ərzaq və Kənd Təsərrüfatı Tərəfdaşlığı (FAST) üzrə nazirlər görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, COP29 sədrliyi, Kənd Təsərrüfatı Nazirliyi və FAO ilə əməkdaşlıq çərçivəsində keçirilən görüşə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) İqlim Dəyişikliyi, Biomüxtəliflik və Ətraf Mühit Ofisinin direktoru Kaveh Zahedi moderatorluq edib.

Tədbirdə çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov Davamlı Transformasiya üçün Ərzaq və Kənd Təsərrüfatı Tərəfdaşlığını iqlim dəyişikliyinin təsir etdiyi kiçik fermerlərə və kənd icmalarına çatdırmaq üçün maliyyəni səfərbər etməklə ehtiyacı təcili həll edən mühüm platforma adlandırıb. Nazir əlavə edib ki, FAST vasitəsilə kənd təsərrüfatı sistemlərində iqlim həllərinin həm təsiredici, həm də əhatəli olmasını təmin etmək üçün vahid yanaşma qurulur. COP29 sessiyası çərçivəsində fermerlər üçün Bakı Harmoniya İqlim Təşəbbüsünün elan edildiyini deyən nazir diqqətə çatdırıb ki, əsas məqsəd "Harmoniya" ilə mövcud təşəbbüslər arasında uyğunlaşmanı təşviq edən, iqlim təsirlərinə ən həssas olanları dəstəkləmək üçün konkret fəaliyyət göstərən yeni əməkdaşlıq yolunu yaratmaqdan ibarətdir.

O bildirib ki, "Harmoniya" bütün müvafiq iqlim təşəbbüslərini bir araya gəlməyə, bilikləri bölüşməyə və fermerlərə dəstəyi gücləndirməyə dəvət edən inklüziv platforma kimi nəzərdə tutulub. "Dialoq və əməkdaşlıq üçün strukturlaşdırılmış məkan yaratmaqla, Harmoniya Təşəbbüsü müntəzəm mübadilə və yaxınlaşma üçün yeni yollara töhfə verməklə FAST-ın məqsədlərinə yaxından uyğunlaşır. Biz "Harmoniya"nı kənd təsərrüfatı icmalarında davamlılığın qurulmasında iqlim maliyyəsini daha əlçatan və daha effektiv edən birləşdirici təşəbbüs olan FAST Tərəfdaşlığının əsas davamı kimi təsəvvür edirik".

Müzakirələrdə çıxış edən Misirin kənd təsərrüfatı nazirinin müavini Adel Abdelazeem, COP28 Ərzaq Sistemləri Qrupunun məsləhətçisi Zak Bleicher, Braziliya Xarici İşlər Nazirliyinin İqlim fəaliyyəti şöbəsinin rəhbəri Mario Mottin, FAO-nun İqlim Dəyişikliyi, Ətraf Mühit və Biomüxtəliflik İdarəsinin baş təbii sərvətlər mütəxəssisi Martial Bernoux, Almaniyanın Ərzaq və Kənd Təsərrüfatı Federal Nazirliyinin Parlament Dövlət katibi Klaudiya Müller və başqaları iqlim maliyyələşdirməsini sürətləndirmək üçün COP-dan COP-a əməkdaşlığın əhəmiyyəti, FAST və "Harmoniya" təşəbbüsləri arasında əlaqə, kənd təsərrüfatı sistemlərinin transformasiyası, yeni çağırışlara uyğun dayanıqlı kənd təsərrüfatı sisteminin yaradılması, ətraf mühiti qorumaqla məhsuldarlığın artırılması, bu istiqamətlərdə qlobal əməkdaşlıq məsələlərinə toxunublar.

Tədbirin sonunda mövzu ətrafında fikir mübadiləsi aparılıb, iştirakçıların sualları cavablandırılıb.

Azərbaycan.- 2024.- 20 noyabr (№ 255).- S.9.